# Ümummilli lider Heydər Əliyev və dil siyasəti



Xalqımızın ümummilli lideri Heydər Əliyev Vətən sevgisi, böyük siyasi iradəsi, fenomenal təfəkkürü, əyilməz xarakteri, quruculuq istedadı, parlaq nitq mədəniyyəti, dövlətçilik strategiyası, tarixi keçmişimizə, ana dilimizə, mədəniyyətimizə tükənməz hörməti ilə bütün dünyada nüfuz, xalqda məhəbbət, əməlləri ilə əbədiyyət ömrü qazanmış nadir şəxsiyyətdir. Ulu Öndərin 1993-cü ilin iyununda öz vicdanının hökmü və xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı Azərbaycanda yeni eranın başlanğıcını qoydu. Ən başlıcası milli və dövlət müstəqilliyi qorunub saxlanılaraq möhkəmləndirildi, himayədarlı, təcavüzkar erməni hərbi birləşmələrinin ölkəmizə qarşı yönəlmiş təxribatları və hücumları dayandırıldı, qeyri-qanuni yolla hakimiyyətin ələ keçirilməsi cəhdlərinə son qoyuldu, anarxiyanı, başıpozuqluğu qanunlarımızın aliliyi əvəz etdi, xalqın inamı özünə qaytarıldı, tarixi sərvətimiz kimi nəsildən-nəslə çatdırılan milli birlik, xalqların həmrəyliyi müəyyən qüvvələr tərəfindən səpilmiş nifaq toxumundan təmizlənərək sağlam əsaslara qaytarıldı. Tarixdə ilk dəfə olaraq Azərbaycanın milli siyasət kursu müstəqil dövlət siyasətinin tərkib hissəsi kimi gerçəkləşdirilməyə başlandı. Dəqiq, düzgün siyasi orientasiya ilə yanaşı, ictimai-siyasi, hərbi, sosial-iqtisadi, ədəbi-mədəni, elm-təhsil sahələrini bütövlükdə əhatə edən və kompleks xarakter daşıyan milli siyasət doktrinasında müstəqillik və azadlıq məramlarına nail olmaq məqsədilə dövrün imkanlarından maksimum istifadə hesabına milli dövlət quruculuğunun ən vacib atributlarını gerçəkləşdirmək və xalqın təfəkküründə, mənəviyyatında tarixi ilkinliyi bərpa etməklə əsaslı dönüş yaradılması ön sıraya çəkildi, dövlət quruculuğu və milli insan-milli siyasət məsələsi konsepsiyanın prioritet istiqaməti kimi qəbul edildi.

Ümummilli lider Heydər Əliyevin istər 1969-1982, istərsə də 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik etdiyi dövrlərdə müəllifi olduğu milli siyasət konsepsiyasının tərkib hissələrindən biri-xalqımızın mövcudluğunun əsas amillərindən olan dilimizin dövlət dili statusu alması və beynəlxalq səviyyəyə yüksəldilməsi, zənginləşə-zənginləşə nüfuz qazanması, təkcə sözdə deyil, gündəlik təcrübədə də işlək dilə çevrilməsi məhz bu dahi şəxsiyyətin yürütdüyü müdrik və uzaqgörən siyasətin təntənəsi ilə bağlıdır. Onun ana dili, ümumiyyətlə, dil quruculuğu haqqında elmi-nəzəri fikirləri yalnız dünən, bu gün üçün deyil, sabah üçün də bu sahənin mütəxəssislərinin müraciət edəcəyi metodoloji-ideoloji əhəmiyyət daşıyan fikirlərdir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun ana dilidir". Məhz bu qüdrətinə görə dil onun milli siyasət konsepsiyasında önəmli yer tutur.

1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyası hazırlanarkən respublika rəhbərinin təşəbbüsü və yaradıcı ittifaqların tələbi ilə Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi ilə bağlı Konstitusiyaya xüsusi maddə əlavə edilməsi Azərbaycan cəmiyyətinin yekdil rəyi kimi formalaşdı və Moskvanın bu məsələ ilə bağlı güzəştə getməkdən başqa çarəsi qalmadı.

1980-ci illərdə doğma dilimizin məhv olması üçün real təhlükələr yarandığı vaxtlarda da dahi şəxsiyyət Heydər Əliyev özü ana dilində danışmaqla, dilçilik elminin inkişafında rolu olan dilçi alimlərin elmi axtarışlarını respublika mükafatları ilə qiymətləndirməklə, başqa xalqların ədəbiyyatlarının Azərbaycan dilinə tərcüməsinə maraq oyatmaqla Azərbaycan dilini bəladan xilas etdi, onun yaşamaq haqqını özünə qaytardı.

Ulu öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıdışından sonra da "Dili yaşatmaq xalqı yaşatmaqdır" devizi ilə fəaliyyətini davam etdirdi və 1995-ci il 12 noyabr tarixində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasına "Azərbaycan dili" maddəsinin (21-ci maddə) salınması, 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", 2001-ci il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dilinin təsis edilməsi haqqında" Sərəncamların imzalanması, eləcə də 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasının dövlət dili haqqında" Qanunun qəbul edilməsi onun milli məsələdə, xüsusən də dil məsələsində siyasi xəttinin dəyişmədiyini bir daha sübut etmiş oldu.

Ana dilini gözəl bilən, onun lüğət tərkibinə, qrammatik quruluşuna, üslub imkanlarına dərindən bələd olan Ümummilli Liderimizin müxtəlif vəzifəli şəxslərin, ziyalıların nitqində aşkar səhvlərə tənqidi yanaşması birinci növbədə ana dilinə-Azərbaycan dilinə məhəbbətdən irəli gəlirdisə, bu, ikinci növbədə, danışan şəxsin məsuliyyətsizliyinə, fikrini düzgün, dəqiq, səlis ifadə etməməsinə etirazın nəticəsi idi.

Ulu öndər Heydər Əliyev gənc nəslin ana dilini düzgün, hərtərəfli, elmi əsaslar zəminində mənimsəməsi ilə bağlı bir sıra dəyərli məsləhətlər vermiş, özünün qiymətli fikir və mülahizələrini söyləmişdir. Belə ki, 1997-ci ilin avqustun 29-da Prezident Sarayında respublikamızın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrlə görüşdə ümummilli lider Heydər Əliyevin dərin məzmunlu, bir sıra yeni məsələlər irəli sürülən nitqi əlamətdardır: "Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini-dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə biz bu dildə danışdığımıza görə öz dilimizin zənginliyini və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu, həqiqətdir. Ona görə də bunu heç bir şeyə dəyişmək olmaz".

Ulu Öndərimiz Azərbaycan dilinə respublikamızın dövlət rəmzlərindən biri kimi işdə, əməldə böyük qiymət verdiyi üçün bu dilin əcnəbilərə öyrədilməsini də əhəmiyyətli hadisə, ana dilinin - Azərbaycan Respublikasının dilinin beynəlxalq nüfuzu kimi hesab edərək müxtəlif ölkələrə təhsil almağa gedən tələbələrə öz dilimizdə danışmağı, başqa millətlərin nümayəndələrinə də öyrətməyi məsləhət görür, respublikamıza gəlib işləyənlərin, şirkət və səfirlik nümayəndələrinin Azərbaycan dilini öyrənməyə çalışdıqlarını sevindirici hal, yenilik kimi qeyd edirdi.

Azərbaycan dilinin inkişafı, onun tətbiqi sahəsinin genişləndirilməsi və yabançı təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində ulu öndər Heydər Əliyevin yeritdiyi siyasət bu gün onun siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyevin dil siyasəti, onun dilimizin inkişafı yönündə göstərdiyi tarixi xidmətlər əsl məktəbdir və bu məktəbin təcrübəsindən zaman-zaman istifadə olunacaqdır.

**Cavid Əkbərov,**
***"İki sahil"***